

Yerə, göyə sığışmır
Bu gün sevincim mənim,
Papağın qoyub qaçır
Qarabağdan düşmənim,
Qədəmimə sevinir
Dağım, düzüm, çəmənim,
Üzür sevinc gölündə
Anam Azərbaycanım,
Yaşa, var ol, yüz yaşa,
Ali Baş Komandanım!

Otuz il qan ağlayan
Gözümüz gülür bu gün,
Sızıldayan şeirimiz,
Sözümüz gülür bu gün,
Çəkilir qəm buludu-
Üzümüz gülür bu gün.
Alındı Cəbrayılım-
Gülür dağım, aranım,
Yaşa, var ol, yüz yaşa,
Ali Baş Komandanım!

Qoymarıq yad köpəklər
Hürələr Qarabağda,
Yallı gedə, oynaya
O gül-çiçəkli dağda,
Otuz il ürəyimiz
Sızıldadı bu yağda.
Yolumuzu gözləyir
Laçınım, Zəngilanım,
Yaşa, var ol, yüz yaşa,
Ali Baş Komandanım!

Qürurumla oynadı
Dığalar Qarabağda,
Yeyib, içib yatdılar

***ASİM YADİGAR***

# YAŞA, VAR OL, YÜZ YAŞA, ALİ BAŞ KOMANDANIM!

O yaylaqda, bu dağda,
Bu ağrıya, bu dərdə
Dözməyirdi torpaq da,
Yanıb-alovlanırdı,
Tüstülənirdi canım,
Yaşa, var ol, yüz yaşa,
Ali Baş Komandanım!

Mübarizlər nəsliyik-
Qeyrət qanımızdadır,
Düşmənə amansızıq-
Nifrət canımızdadır,
Polad, Mübariz kimi
Ərlər yanımızdadır,
Türk oğlu türkük, yoxdur,
Yox, qorxum, həyəcanım,
Yaşa, var ol, yüz yaşa,
Ali Baş Komandanım!

Hər qarış torpaqğımda
Neçə şəhid qanı var,
Torpaq şəhid qanıyla
Yoğrulsa, torpaq olar!
Qarabağçün canından
Keçər min-min oğullar,
"Uf" demərəm, torpağa
Axsa şəhidtək qanım,
Yaşa, var ol, yüz yaşa,
Ali Baş Komandanım!

Qələbə təşnəsiyik-
Qələbə gözləyirik!
Bütün türk dünyasını
Bayrama səsləyirik!
Gəlirik, Qarabağım,
Gözlə bizi deyirik.
Qoşa dursun Şuşamda
İlhamım, Ərdoğanım!
Yaşa, var ol, yüz yaşa,
Ali Baş Komandanım!

Ədalət.- 2020.- 8 oktyabr. S. 5.